AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

22 İYUL 2018-ci il BAZAR № 160 (6193) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

Hörmətli cənab Prezident,

Misir Ərəb Respublikasının milli bayramı - İnqilab Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və daha da möhkəmləndirilməsi yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyul 2018-ci il.**

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 12, maddə 740; 2002, N 12, maddə 706; 2003, N 1, maddə 23, N 8, maddə 428, N 12, I kitab, maddələr 676, 698; 2005, N 1, maddə 1, N 6, maddə 462, N 8, maddə 684, N 10, maddələr 873, 905, N 12, maddə 1083; 2006, N 3, maddələr 223, 225, N 6, maddə 481, N 12, maddələr 1015, 1029; 2007, N 2, maddə 80, N 12, maddə 1203; 2008, N 3, maddə 158, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1047; 2009, N 1, maddə 5, N 2, maddə 56, N 3, maddə 160, N 7, maddə 519, N 12, maddə 947; 2010, N 4, maddə 276, N 6, maddə 485, N 10, maddə 840, N 11, maddə 939; 2011, N 1, maddə 12, N 4, maddələr 245, 264, N 11, maddə 985, N 12, maddə 1100; 2012, N 1, maddə 4, N 6, maddələr 508, 518, N 7, maddə 646, N 10, maddə 947, N 12, maddələr 1216, 1227, 1229; 2013, N 3, maddə 213, N 5, maddə 474, N 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, N 12, maddələr 1485, 1504; 2014, N 1, maddə 6, N 5, maddə 468, N 6, maddələr 603, 605, N 7, maddələr 774, 780, N 11, maddələr 1345, 1370; 2015, N 12, maddə 1432; 2016, N 1, maddələr 15, 36, N 4, maddə 630, N 5, maddə 849, N 6, maddə 1014, N 10, maddə 1605, N 11, maddələr 1753, 1776, 1780, 1790, N 12, maddələr 2006, 2051; 2017, N 3, maddələr 337, 341, N 5, maddə 742, N 6, maddə 1028, N 7, maddə 1308, N 8, maddə 1506, N 12, İ kitab, maddə 2265; 2018, N 3, maddə 405, N 4, maddələr 639, 647) aşağıdakı dəyişikliklər edilsin:

1.1.10.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10.1.2. müqavilə üzrə əmlak başqa şəxslərin mülkiyyətinə keçirsə - 250 manat".

1.2.Aşağıdakı məzmunda 11.3-cü maddə əlavə edilsin:

"11.3. Bu Qanunun 10.1.2-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun Bakı şəhəri üzrə 100 faizi, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə 70 faizi, digər regionlar üzrə isə 50 faizi ödənilir.".

1.3.10.11.1-ci və 10.12.1-ci maddələrdə "etibarnamə ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə, qardaşa, bacıya" sözləri "etibarnamə təmsil edilənin ərinə (arvadına), uşaqlarına, valideynlərinə, babasına, nənəsinə, nəvəsinə, qardaşına, bacısına" sözləri ilə əvəz edilsin.

1.4.18.65.5.1-ci maddədə "18" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin.

1.5.18.65.6.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"18.65.6.1. avtonəqliyyat vasitələri üçün verilən dövlət qeydiyyat nişanında əks olunmuş rəqəmlərin və ya hərflərin kombinasiyasına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən dövlət qeydiyyat nişanlarının verilməsinə görə dövlət rüsumunun məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada keçirilən hərrac nəticəsində müəyyən olunur.".

1.6.18.65.6.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"18.65.6.2. bu Qanunun 18.65.6.1-ci maddəsində nəzərdə tutulmuş dövlət qeydiyyat nişanları istisna olmaqla, avtonəqliyyat vasitələri üçün digər dövlət qeydiyyat nişanlarının verilməsinə, habelə dövlət qeydiyyat nişanının təkrar verilməsinə görə - 35 manat.".

1.7.18.65.7.1-ci maddədə "17" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanunun 1.5-ci və 1.6-cı maddələri "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa dövlət qeydiyyat nişanının hərrac vasitəsilə verilməsinə dair ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1855 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034; 2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə 627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77; 2017, N 2, maddə 184, N 10, maddə 1784; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 115 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.12-2-ci yarımbəndinə "qaydalarının" sözündən sonra ", həmçinin yoxlayıcı orqan (yoxlayıcı) tərəfindən (onlara münasibətdə yuxarı dövlət orqanının olmadığı hallarda) "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda yoxlamalarla əlaqədar müəyyən edilmiş digər tələblərin və prosedurların" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 iyul 2018-ci il.**

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1232-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1232-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 12, maddə 767; 2006, N 12, maddə 1057; 2008, N 9, maddə 798; 2012, N 6, maddə 547, N 12, maddə 1271; 2013, N 11, maddə 1327, N 12, maddə 1510; 2014, N 4, maddə 360; 2016, N 1, maddə 43, N 5, maddə 883, N 9, maddə 1463, N 11, maddə 1807; 2017, N 3, maddə 370, N 5, maddə 757, N 7, maddə 1377, N 10, maddə 1804, N 12 (I kitab), maddə 2293) 2.1-ci bəndinə "6.2-ci" sözlərindən sonra ", 18.65.6.1-ci (hər iki halda)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 iyul 2018-ci il.**

# Dayanıqlı və dinamik inkişaf yolunda

## *Dövlət başçısı deyib: "Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir"*

**Azərbaycan düşünülmüş siyasətlə hərtərəfli dinamik inkişafını davam etdirir. Bu prosesin mahiyyətində iqtisadiyyatın çoxşaxəliliyi, qarşılıqlı səmərəli əməkdaşlığın sərhədlərinin daim genişləndirilməsi, beynəlxalq iqtisadiyyata milli mənafelərə uyğun inteqrasiya, şəffaf əlaqələr, ədalət və s. kimi şərtlər durur. Düşünülmüş siyasətlə operativ aparılan islahatlar, müasir elmi-texniki yenilikləri tətbiq etməklə reallaşdırılan layihələr və ölkəmizin multikulturalizmin nadir məkanı olması dinamik inkişafa geniş şərait yaradıb.**

Reallıqdır ki, heç bir başqa ölkədə son on beş il ərzində iqtisadiyyat bu qədər artmamışdır. Tərəqqinin başlıca səbəbi aparılan islahatlar, ölkəmizdə hökm sürən sabitlik, ictimai asayişin, etibar və etimadın təminidir. Azərbaycanda aparılan iqtisadi islahatların siyasi islahatlarla tamamlanması sosial-iqtisadi sahədə inkişafa da gözəl şərait yaratmışdır. İki istiqamət daim uzlaşdırılır ki, bu da müvəffəqiyyətin əsas səbəblərindən biridir. Digər çox mühüm səbəb isə xalqın dövlət başçısının yürütdüyü siyasəti dəstəkləməsi və iqtidar-xalq birliyidir.

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində yürüdülən dövlət siyasətinin mahiyyəti barədə deyib: "Bizim siyasətimiz isə xalqın maraqlarını təmin edən siyasətdir. Bizim siyasətimiz müstəqillik siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir".

Qəbul edilən regionların sosial-iqtisadi inkişafı birinci Dövlət Proqramının icrası qarşıya qoyulan məqsədlərin reallaşması üçün hər bir sahədə güclü inkişafa zəmin yaratmışdır. İkinci proqramın icrası isə ölkə iqtisadiyyatının neftdən asılılığını minimuma endirmiş, mühüm islahatlar həyata keçirilmiş, bütün iri infrastruktur layihələrinin icrası təmin edilmiş, real iqtisadiyyatın şaxələndiriliməsinə nail olunmuş, müasir sənayeləşmə prosesi üçün bütün təməllər yaradılmışdır. Beləliklə, Azərbaycanın iqtisadi potensialı kifayət qədər güclənmişdir. 2004-2014-cü illərdə ölkə dünyada ən sürətli templərlə inkişaf etmiş, iqtisadiyyat 3,4 dəfə artmışdır. Sənaye sahəsində isə bu göstərici 2,7-dir. Regionların sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramının icrası da çox uğurludur. Bütün sahələrdə inkişaf davamlıdır, artıq yeni yüksək mərhələyə qədəm qoyulur. Aparılan genişmiqyaslı iqtisadi islahatların nəticəsində, 2018-ci ilin birinci yarısında ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artıb, inflyasiya birrəqəmli olmaqla 3 faiz təşkil edib. İqtisadiyyatın şaxələndirilməsində xüsusi rolu olan qeyri-neft sənayesində 8,8 faiz, kənd təsərrüfatında 7,6 faiz, informasiya və rabitə xidmətlərində 4,9 faiz, ticarətdə 2,5 faiz artıma nail olunub. Beləliklə, ölkədə aparılan sənayeləşmə siyasəti sayəsində real iqtisadiyyatda inkişafın dinamizmi qorunur. Hazırda dünyanın daha çox ehtiyac duyduğu kənd təsərrüfatı məhsulları istehsalı sahəsində də son vaxtlar xüsusi diqqət sayəsində dinamik artım vardır. Əsas göstəricilər təsdiq edir ki, hətta davam edən böhranlı illərdə də ölkəmiz inkişaf edir və edəcəkdir. Hazırda icra ediləcək layihələr imkan verir ki, sənaye müəssisələri yaradılsın, nəticədə bu dinamika qorunsun və sürətləndirilsin. Bu gün Azərbaycan postneft dövrünə qədəm qoyub, yeni iqtisadi modelin təməlləri yaradılır. Real iqtisadiyyatın sürətli inkişafı nəticəsində ölkə yerləşdiyi regionun qüdrətli sənaye ölkəsinə, mühüm tranzit qovşağına çevrilməkdədir.

2018-ci ildə enerji sektorunda, xüsusən "Cənub" qaz dəhlizinin yaradılması istiqamətində çox önəmli işlər görülmüşdür. TANAP-ın rəsmi açılışı olmuşdur. Azərbaycanın bu dəhlizin reallaşmasında xüsusi və aparıcı rolu vardır. Bu çox böyük iqtisadi və siyasi uğurdur. Çünki dəhliz Avropa üçün enerji təhlükəsizliyi layihəsidir, təchizatın şaxələndirilməsi hədəfinə daxildir. Azərbaycan üçün isə dəhlizin reallaşması əlavə siyasi, maliyyə, iqtisadi imkanların yaradılması deməkdir və imkan verəcəkdir ki, həm ölkəmizin zəngin qaz resurslarını, həm də Mərkəzi Asiya və digər ölkələr həmin xətlə dünya bazarlarına bundan sonra da, onilliklər ərzində qaz ixrac etsin. Bu proses, təbii ki, dövlətimizə həm iqtisadi inkişafın dayanıqlığını, mənfəət gətirilməsini, valyuta axınını təmin edəcək və həm də siyasi dividendlər qazandıracaqdır.

"Cənub" qaz dəhlizi dörd layihədən ibarətdir - "Şahdəniz", Cənubi Qafqaz kəməri, TANAP başa çatıb, son mərhələ TAP-ın icrası isə 72 faizdən çoxdur. Hazırda son layihə üzrə işlər uğurla icra edilir. Beləliklə, keçən illər bir də onunla əlamətdardır ki, Azərbaycan özünü dünyaya çox güclü tranzit ölkəsi kimi təqdim etmişdir.



Azərbaycan Avropa və Asiyanın qovşağında mühüm geosiyasi mövqeyə malikdir. Ölkə qitələrarası nəqliyyat-tranzit infrastrukturunu yaratmaqla son dərəcə mühüm qovşağa çevrilib, sərnişin və yüklərin daşınmasında çox səmərəli marşrutu təmin etməklə, multimodal nəqliyyatın həcminin artmasına, regionda ölkələrarası əməkdaşlığın genişləndiriliməsinə müstəsna şərait yaradıb. Azərbaycanın reallaşacaq beynəlxalq transmilli layihələrdə aparıcı rola malik olması ona güclü siyasi dividendlər də gətirəcəyi şübhəsizdir. Digər tərəfdən, qitələri birləşdirəcək bu layihələr Avrasiya materikində və onun hüdudlarından kənarda əməkdaşlığın genişlənməsinə, inkişafa, sülhə və birgəyaşayışa çox mühüm töhfə verməkdədir.

Müasir, beynəlxalq tələbata uyğun nəqliyyat və infrastruktur iqtisadi inkişafın davamlılığını və sürətliliyini şərtləndirən əsas amillərdəndir. Yeni yaradılan iqtisadi sahələr, turizm zonaları, şəhərlərarası rabitənin rahatlığı, yük daşımalarının fasiləsizliyi, güclü və səmərəli tranzit potensialı və effektli beynəlxalq nəqliyyat qovşağı imkanı — bütün bu amillər Azərbaycanı həm siyasi, həm də iqtisadi cəhətdən gücləndirir. Təsadüfi deyil ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə daşıma müddətinə iki dəfədən çox (30-35 gündən 14 günə qədər) qənaət edilir. Nəqliyyat infrastrukturuna qoyulan sərmayə özünü praktikada doğruldur. Şərqdən Qərbə, Şimaldan Cənuba gedən yolların Azərbaycandan keçməsi və buna müasir, təhlükəsiz, səmərəli şərait mühüm əhəmiyyətə malikdir. Bu, tək Avrasiya materiki üçün deyil, bütün dövlətlərə müvafiq imkanlar verən yenilik, əvəzolunmaz nəqliyyat mərkəzidir. Beləliklə, bu istiqamətdə çox önəmli addımlar atılmış, həm Orta Asiyadan, həm Çindən, həm də Cənubi Koreyadan Avropaya Azərbaycan ərazisindən yüklər daşınmağa başlamışdır. Bu gün Azərbaycanda altı beynəlxalq aeroport, ən müasir təyyarə parkları vardır. Bundan başqa, Xəzərdə ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin inşası başa çatmışdır. Beləliklə, real iqtisadiyyatın sahələrinin dinamik innovativ inkişafı üçün geniş islahatlar həyata keçirilir.

(dava 2-ci səhifədə)

*"The Jerusalem Post":*

# Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələri strateji xarakter daşıyır

**İsrailin nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qutun "Azərbaycanın Avropa İttifaqı və NATO ilə münasibətləri mühüm əhəmiyyət kəsb edir və strateji xarakter daşıyır" sərlövhəli məqaləsi dərc olunub.**




AZƏRTAC xəbər verir ki, müəllif Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verdiyini vurğulayır. Bildirir ki, Azərbaycan Avropanın enerji təchizatında mühüm rol oynayan marşrutların şaxələndirilməsi ilə yanaşı, enerji mənbələrinin şaxələndirilməsinə də töhfə verir. Avropa İttifaqı və NATO ilə əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir. Şübhəsiz ki, Avropa İttifaqı (Aİ) və NATO ilə əməkdaşlıq Azərbaycana bir çox məqsədlərə nail olmaqda kömək edə bilər. Buna görə də ölkə həm Avropa İttifaqı, həm də NATO ilə münasibətləri inkişaf etdirmək niyyətindədir. Azərbaycanla Aİ arasındakı əməkdaşlığın səmərəlilik, bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı anlaşma və hörmət əsasında qurulması çox vacibdir.

Arye Qut Prezident İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə Brüsseldə "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanmasını vurğulayaraq, bu sənədin əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır.

Müəllif Azərbaycanın enerji sektoru ilə yanaşı, digər sahələrdə də Avropa İttifaqı ilə strateji tərəfdaşlıq qurmağı planlaşdırdığını qeyd edir.

Məqalədə, həmçinin Azərbaycanın "Sülh naminə Tərəfdaşlıq" proqramının prinsiplərinə əsaslanaraq ortaq maraq doğuran mühüm məsələlər üzrə NATO ilə siyasi dialoq apardığı vurğulanır.

O, Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələrinin regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynadığını vurğulayaraq, 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlılarının NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət etdiyini diqqətə çatdırır. Qeyd edir ki, 2018-ci ilin yanvar ayından Azərbaycan Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb. Azərbaycan Qətiyyətli Dəstək missiyasına nəqliyyat və logistik dəstək də göstərir və ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi bu missiyaya tranzit dəstəyi göstərilməsinə böyük dərəcədə kömək edib.

Məqalənin sonunda İsrailli ekspert Azərbaycan Prezidenti İlham Əliyevin NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündəki nitqindən sitat gətirərək yazır: "Ermənistanın təcavüzündən əziyyət çəkən və bu təcavüz nəticəsində beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunmuş, bir milyon soydaşına qarşı məlum acınacaqlı etnik təmizləmə törədilmiş Azərbaycan işğalın və dağıntının iqtisadi və humanitar nəticələrini yaxşı anlayır. Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir. Azərbaycan Əfqanıstanın üzləşdiyi təhlükəsizlik təhdidlərinin aradan qaldırması, ölkədə sülh və inkişafın əldə edilməsi işinə köməyini bundan sonra da davam etdirəcək".

**AZƏRTAC**

# Qoşunların operativliyinin artırılması ilə bağlı tapşırıqlar verilib

**İyulun 21-də Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin rəhbər heyətinin iştirakı, həmçinin videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birlik və birləşmə komandirlərinin cəlb olunması ilə xidməti müşavirə keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, keçirilmiş təlimlər, komandanlar və komandirlərin məruzələri, həmçinin qoşunların hərtərəfli fəaliyyətinin yoxlanılmasının nəticələri əsasında cəbhə bölgəsindəki və qoşunların digər dislokasiya yerlərindəki cari vəziyyəti təhlil edən müdafiə naziri müvafiq göstərişlər verib.

Gizli idarəetmə və maskalanmanın tələblərinə ciddi riayət etməklə ehtimal olunan döyüş əməliyyatları istiqamətlərində qüvvə və vasitələrin vaxtında cəmləşdirilməsi məqsədilə general-polkovnik Z.Həsənov qoşunların operativliyinin, döyüş hazırlığının, bölmələrin, birləşmələrin yüksək manevrlilik və dəqiq qarşılıqlı fəaliyyətinin artırılması üzrə tapşırıqları müəyyən edib.

Müşavirə zamanı ümumi təhlükəsizlik məsələlərinə, xüsusilə də yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunması, həmçinin qoşunların fasiləsiz və hərtərəfli təminatı ilə əlaqədar göstərişlər verilib.

**AZƏRTAC**

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

**Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun konstitusiya məhkəmə icraatı qaydasında açıq məhkəmə iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Xalq Bank" Açıq Səhmdar Cəmiyyətinin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2017-ci il 18 oktyabr tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim S.Salmanovanın məruzəsini, ərizəçinin nümayəndəsinin və vəkilinin, mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, "Mars-M" firmasının "Xalq Bank" Açıq Səhmdar Cəmiyyətinə qarşı kredit və sonrakı ipoteka müqavilələrinin etibarsız hesab edilərək ləğv olunmasına dair iddia tələbi və s. barədə iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2017-ci il 18 oktyabr tarixli qərarı Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416-cı, 418.1-ci və 418.2-ci maddələrinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin. İşə bu Qərarda əks olunmuş hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətdə yenidən baxılsın.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

**AZƏRTAC**

# Sakinlərlə görüş

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Lənkəran rayonunda həmin rayonun və Astara, Lerik, Masallı, Yardımlı rayonlarının sakinlərini fərdi qaydada qəbul edərək, müraciətlərini dinləyib.**



Bu barədə ictimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumatda qeyd olunur ki, əvvəlcə nazir S.Babayev və Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ümummilli lider Heydər Əliyevin Lənkəran şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Qəbul zamanı qeyd olunan rayonların sakinlərinin əmək hüquqlarının müdafiəsi, sosial təminat növlərinə (pensiya və müavinət, təqaüd, sosial yardım və s.) hüququn müəyyən edilməsi, imtiyazlı şəxslərin mənzillə təmin olunması, sosial sığorta, məşğulluğun təmin olunması, özünüməşğulluq proqramına və reabilitasiya xidmətlərinə cəlb edilmə, əlilliyin qiymətləndirilməsi məsələlərinə dair müraciətləri cavablandırılıb. Müraciətlərin bir hissəsi sorğu xarakterli olduğundan vətəndaşlara aidiyyəti üzrə qanunvericilik əsasında izahatlar verilib. Digər müraciətlərdə əksini tapan məsələlərlə bağlı müvafiq tədbirlər görülməsi, bir sıra məsələlərin elə yerindəcə həll edilməsi üçün S.Babayev tərəfindən nazirliyin müvafiq struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

Nazir vətəndaşlarla görüşündə sosial təminat, tibbi-sosial ekspertiza və reabilitasiya sistemlərində şəffaflığın və sosial ədalət prinsipinin tam təmin olunması, xidmətlərin keyfiyyətinin artırılması üçün aparılan islahatlar barədə məlumat verib.

Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı rayonlarında əhalinin sosial müdafiəsi sahəsində görülən işləri diqqətə çatdıran S.Babayev həmçinin bu 5 rayonda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən son illərdə 26 fərdi yaşayış evininin inşa etdirilərək Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə təqdim edildiyini, 20-yə yaxın fərdi evin də tikilməkdə olduğunu deyib. O, həmin rayonlar üzrə bu ilin birinci yarımilində məşğulluq orqanlarının xətti ilə 3 minə yaxın şəxsin məşğulluğunun təmin edildiyini bildirib.

Nazir ötən il 40 nəfərin özünüməşğulluq proqramına cəlb edildiyi Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı rayonları üzrə bu il 460 nəfərin həmin proqramda iştirakının planlaşdırıldığını, onlardan artıq böyük əksəriyyətinin kiçik biznesin təşkili ilə bağlı təlimlərə cəlb olunduğunu qeyd edib. Reabilitasiya sisteminin müasir tələblərə uyğun qurulması işlərinin davam etdirildiyini bildirən S.Babayev ƏƏSMN-in Lənkəran rayonundakı Əlilliyi olan Şəxslər üçün Regional Bərpa Mərkəzində də əsaslı təmir və yenidənqurma işlərinin aparılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Nazir İnam Kərimov Şamaxıda vətəndaşları qəbul edib

*Qəbul zamanı 60-dan çox vətəndaşın müraciəti dinlənilib*

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.



Kənd təsərrüfatı naziri İnam Kərimov iyulun 20-də Şamaxı rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati binasında Qəbələ, İsmayıllı, Qobustan və Şamaxı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl nazir İnam Kərimov və rayon icra hakimiyyətinin başçısı Asif Ağayev ümummilli lider Heydər Əliyevin icra hakimiyyətinin binası qarşısında ucaldılan abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Nazir İnam Kərimov daha sonra vətəndaşları qəbul edib. Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 60 vətəndaşın müraciətinə baxılıb.

Qəbula gələn vətəndaşların müraciətləri əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin olunma və digər məsələlərlə bağlı olub.

Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Nazir vətəndaşlarla görüş zamanı dövlətimizin başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı son dövrlərdə imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb.

Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Dayanıqlı və dinamik inkişaf yolunda

*Dövlət başçısı deyib: "Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir"*

**(əvvəli 1-ci səhifədə)**

Qeyri-neft sektoru məhsullarının ixrac potensialının artırılması diqqət mərkəzindədir. Prioritet elan olunmuş qeyri-neft sənayesinin inkişaf dinamizminin qorunması gərginliyin artdığı müasir beynəlxalq şəraitdə çox mühüm irəliləyişdir. Dünyada baş verən siyasi, iqtisadi, sosial kataklizmlərə baxmayaraq, ölkəmiz yenə də beynəlxalq meridianlarda kapital yönəldilməsi üçün cəlbediciliyini qoruyur. Təsadüfi deyil ki, ümumən Azərbaycan iqtisadiyyatına 230 milyard dollar sərmayə qoyulmuşdur. Bu məbləğin yarısını xarici kapital təşkil edir. Azərbaycan dövlətinin vaxtında atdığı dinamik, operativ səmərəli iqtisadi, siyasi addımları, onu dəstəkləyən xalqımızın zəhmətinin bəhrəsi göz önündədir. Azərbaycanın qazandığı iqtisadi nəticələr həm də onun beynəlxalq aləmdə siyasi və diplomatik uğurlarının nəticəsidir. Düzdür, iqtisadiyyat siyasətin bazisidir, lakin bir həqiqət də məlumdur ki, düzgün daxili və xarici siyasət iqtisadiyyatın inkişafında həlledici şərtdir. Çünki siyasət, iqtisadiyyat və sosiologiya bir-birini tamamlayan fəaliyyət sahələridir. Belə ki, birində fəsad baş verdikdə dərhal o birilərində də tənəzzül baş verir və ölkə bu neqativ halın ağrısını çəkməyə məcbur olur. Azərbaycanda isə bu üç amil birlikdə inkişaf etdirilir və hərtərəfli inkişafı təmin edir. Dövlət başçısı davamlı inkişafın dünyanın diqqət mərkəzində olduğu və aparılan siyasətin xalq tərəfindən dəstəkləndiyi, inkişafın dayanıqlığının təmini barədə deyib: "Davos Dünya İqtisadi Forumunun hesablamalarını Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. Son hesablamalara görə, Azərbaycan dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerdədir. Yol infrastrukturunun inkişafına görə 36-cı yerdədir. İnkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü yerdədir. Ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı yerdədir. Xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci yerdədir. Bax, bu rəqəmlər əyani şəkildə göstərir ki, Azərbaycan hansı böyük uğurlara imza atıb. Bu, əyani şəkildə göstərir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və biz elə etməliyik ki, ölkəmizin inkişafını dayanıqlı və daimi edək".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# Onlar qüdrətli Azərbaycan ordusunda xidmət edəcəklər



Son illərin ən böyük nailiyyətlərindən biri müstəqil Azərbaycanın özünəməxsus güclü ordusunun yaranması, formalaşması və qüdrətlənməsidir. Silahlı Qüvvələrə layiqli oğulların hazırlanması, çağırışçı və çağırışaqədərki gənclərlə iş aparılması günümüzün vacib məsələlərindəndir. Fərəhlə qeyd olunmalıdır ki, son illər Bakının Nərimanov rayonunda bu istiqamətdə məqsədyönlü iş aparılır, gənclərin hər biri orduda xidmət etməyi özünə şərəf sayır. Gənclər "Şahin", "Cəsurlar", "Marş irəli" və digər hərbi-idman oyunlarında fəal iştirak edir, orduya, donanmaya layiqli oğul kimi yetişirlər.

Ölkəmizdə iyulun 1-dən etibarən gənclərin həqiqi hərbi xidmətə çağırışına başlanmışdır. Gənclərin ordu sıralarına yolasalınma mərasimi Nərimanov rayonunda da mütəşəkkil keçir, Vətənə sipər oğullar müharibə və əmək veteranlarının, rayon ictimaiyyəti nümayəndələrinin xeyir-duası ilə əsgəri xidmətə yollanırlar.

Biz qəlbləri oxşayan bir yay səhərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nərimanov rayon idarəsində olduq. Burada təntənə, yüksək coşqu duyulur, hər tərəfdə üçrəngli Azərbaycan Bayrağı dağlalanır, hərbi xidmətə yolasalınma tədbirinin yüksək səviyyədə təşkil olunması hamıda xoş ovqat yaradırdı.

Bir qrup gənc idarənin çağırış şöbəsinin rəisi, polkovnik-leytenant Əlisəfa Məmmədovun əhatəsində idi. Təcrübəli zabit gənclərə 2016-cı ilin aprel döyüşlərində qüdrətli Azərbaycan ordusunun şücaəti, cəsurluğu barədə dolğun məlumat verir, həmin döyüşlərdə düşmənin hərbi təxribatının qarşısının alınması zamanı çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin hərbi obyektlərinin darmadağın edilməsindən, bir sıra mövqelərin ələ keçirilməsindən və bəzi yaşayış məntəqələrinin işğaldan azad olunmasından qürurla danışırdı.

Gənclərin ordu sıralarına yolasalınma mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon idarəsinin rəisi, polkovnik Qəşəm Mahmudov çıxış edərək dedi:

—Dünyada nüfuz sahibinə çevrilən Azərbaycan öz inkişaf tempi ilə ciddi nailiyyətlər əldə edərək strateji prioritetlərinin reallaşdırılması istiqamətində mühüm addımlar atmaqdadır. Ölkəmizin iqtisadi qüdrətinin gündən-günə artması hərtərəfli inkişafı təmin etməklə yanaşı, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin xüsusi diqqəti ilə davam etdirilən ordu quruculuğu prosesinə də əhəmiyyətli təkan verməkdədir. Son illər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyət və ardıcıllıqla apardığı siyasət nəticəsində Azərbaycanın hərbi potensialı dəfələrlə artmış, Silahlı Qüvvələrimiz öz döyüş qabiliyyətinə görə regionun ən güclüləri sırasında yer almışdır.

Ordu müstəqil Azərbaycanımızın ən mühüm atributlarından biridir.

Polkovnik Qəşəm Mahmudov sözünə davam edərək vurğuladı ki, ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan ordusu bu gün inkişafının yeni mərhələsində öz hərbi potensialını durmadan artırır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibəti ilə Bakıda keçirilən hərbi parad təsdiq etdi ki, ordumuz sürətlə inkişaf edərək arsenalını ən müasir silah və hərbi texnika ilə zənginləşdirmişdir. Hazırda dünyanın hərbi cəhətdən inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda da mövcuddur. Hərbi paradda nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev demişdir: **"2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində də. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir...".**

Əminliklə demək olar ki, siz xidmət dövründə mətinləşəcək, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnəcək, ata-babalarımızın şanlı döyüş ənənələrinə sadiqlik nümunəsi nümayiş etdirəcəksiniz.

Gənclərin ordu sıralarına yolasalınma mərasimində İlqar Həbibov valideynlər adından çıxış edərək bildirdi ki, bu gün Azərbaycan güclü orduya malikdir. İşğal altında olan torpaqlarımız çox tezliklə erməni işğalçılarından azad olacaq, daşnak quldurlar heç vaxt məkrli niyyətlərini həyata keçirə bilməyəcəklər.

Budur, meydan yenidən musiqiyə verilir, xatirə şəkilləri çəkdirilir. Gənclərdən Hilal Abdullayev, Cavid Əliyev, Eldar Kərimov, Vüqar Həbibov və başqaları coşqu ilə ordu sıralarına yola düşürlər.

**Qədir ASLAN,**
**"Respublika".**

# BÖYÜK ÖMRÜN YOLLARI



**Çağdaş dövrümüzün ictimai fikir tarixində tanınmış elm xadimi, kimyaçı alim, ixtiraçı, kimya elmləri doktoru, professor, Nyu-York Elmlər Akademiyasının üzvü, neft-kimya və incə üzvi sintez sahəsində tanınmış alim və ictimai xadim, ölkəmizdə, eləcə də dünyada qadın hərəkatının öncüllərindən olan, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə ilk müvəkkili (Ombudsman) Elmira Teymur qızı Süleymanovanın özünəməxsus yeri vardır. Bu təqdimatın, eləcə də ümumiləşdirilmiş fikrin arxasında onun geniş əhatəli elmi, ictimai fəaliyyəti—elmi axtarışlar, qadınların və uşaqların problemlərinin həlli, insan hüquqlarının qorunması yolunda apardığı ideoloji mübarizələr, humanizmi, xeyirxahlığı, insana qayğısı, milli-bəşəri dəyərlərin qorunması və yaşadılmasına vətəndaşlıq mövqeyindən doğan xidmətlər dayanır. Bütün bunlar Elmira xanımın ömrünün səhifələrinə solmayan nəqşlər kimi həkk olunub. Onun həyat salnaməsi ümumən vətənə, xalqa şərəflə, vicdanla xidmət etməsi böyük təcrübəyə, biliyə əsaslandığından, gəncliyimizə örnək olduğundan ictimai həyatımızda həmişə maraq doğurur.**

Burda bir qədər yaxın keçmişə qayıdaraq cəmiyyətdə qadınların rolu və bütün sahələrdə inkişafı ilə bağlı dövlətimiz tərəfindən atılan mühüm addımlara nəzər salmaq bir zərurət kimi qarşıya çıxır. Məlumdur ki, ümummilli lider Heydər Əliyev respublikada dövlətçiliyin möhkəmlənməsində rolu olan qadınlarımızın ictimai-siyasi həyatda fəaliyyətinin genişləndiyini nəzərə alaraq, 1998-ci il yanvarın 14-də “Azərbaycan qadınlarının rolunun artırılmasına dair tədbirlər haqqında” fərman imzaladı. Azərbaycanda bir çox qeyri-hökumət təşkilatlarının, cəmiyyətlərin, birliklərin yaranması da həmin fərmandan irəli gələn fəaliyyət sahəsinin canlanması, müstəqil dövlətimizin inkişafına çalışmaların aydın göstəricisi idi. Artıq Elmira Süleymanova böyük təşkilatçılıq qabiliyyətinə malik olan Lider qadın kimi tanınırdı. Bu fikri ifadə edərkən ölkəmiz üçün çox əhəmiyyətli, qürurverici hadisəni, Hollandiyanın Haaqa şəhərində 1999-cu ildə keçirilmiş II Umumdünya Sülh Konqresini xatırlatmağı da vacib sanırıq. Sənədlərdən və haqqında toplamış materiallardan da məlum olur ki, adı çəkilən konqresdə Azərbaycan yeganə ölkə idi ki, 100 nəfərlik bir nümayəndə heyəti ilə təmsil olunmuşdu. Beynəlxal Sülh Bürosunun və konqresin təşkilat komitəsinin üzvü olan Qadın və İnkişaf Mərkəzi Elmira xanımın təşəbbüsü ilə yaradılmış QHT-lərdən ibarət Sülh və İnkişaf Alyansı onun yüksək təşkilatçılıq bacarığı ilə bu qlobal beynəlxalq forumda və burada keçirilmiş milli seminarda fəal iştirak etmişdir.

Çox keçmədi ki, Azərbaycan xalqı bu işgüzar, dövlətçiliyə fədakarlıqla xidmət göstərən ictimaiyyətçi qadını taleyüklü məsələlərin fonunda daha məsul bir pillədə gördü. Elmira Teymur qızı Süleymanova ölkə başçısının 2 iyul 2002-ci il tarixli qərarı ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) vəzifəsinə seçildi. Vətənə və xalqa xidmət etməkdən ötrü yeni layihələr, irimiqyaslı fəaliyyət yolları açıldı. İti zəkaya, fitri istedada, bacarığa malik olan Elmira xanım Süleymanovanın təşəbbüsü ilə keçirilən görüşlər və bu görüşlərdə səsləndirilən fikirlər, mühüm hadisələr, xalqın taleyüklü məsələlərilə bağlı nüfuzlu beynəlxalq təşkilatlara göndərilmiş bəyanatlar belə bir çevik, prinsipial iş qabiliyyətinə malik olan E.Süleymanovanın fəaliyyətini müxtəlif prizmalardan izləməyə, öyrənməyə imkan yaradır.

Bütün məsələlərdə hər şeyin ilki gözəl olduğu kimi, onun çətinlikləri də çox olur. Əsas da odur ki, bu çətinlikləri böyük cəsarətlə, işgüzarlıqla dəf etməyi bacarasan. Bu mənada İnsan hüquqları üzrə ilk Müvəkkil (Ombudsman) kimi fəaliyyətə başlamaq görüləcək işlərin istiqamətini nizamlı şəkildə həyata keçirməkdən ötrü Aparatın daxili quruluşu, iş prinsipi və getdikcə artacaq işlərin həcmini düzgün müəyyən etməkdən ötrü konkret şöbələr, bölmələr yaratmaqla böyük təsisatın işini quraraq hərəkətə gətirmək, nəhayət, bu sahədə 16 illik təcrübəyə malik olmaq Elmira xanımın dövlətçiliyimizə, xalqımıza xidmətidir.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda belə bir maddə var: “Yaşı 30-dan aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşı müvəkkil vəzifəsinə seçilə bilər” (maddə 3.). Burda mənim diqqətimi cəlb edən başlıca məsələ məhz “insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə” fikridir. Yaxın illərin tarixini yaxşı xatırlayan hər bir azərbaycanlının gözü qarşısında ötən əsrin 80-ci illərindən başlamış ictimai çalışmaları, ölkəmizdə, eləcə də dünya qadın hərəkatında, AQİM-nin yaradıcısı və rəhbəri kimi fəaliyyəti onun birbaşa insan hüquqlarının müdafiəsində böyük təcrübəyə malik olduğunu göstərirdi.

Elmira Süleymanova Azərbaycan Respublikasının İnsan hüquqlarının müvəkkili (Ombudusman) kimi fəaliyyət göstərdiyi illərdə özünün əzmkarlığı, cəsarəti, işgüzarlığı, ildən-ilə cilalanan yeni və uğurlu iş metodu ilə çalışmış və bütün hallarda, zəngin təcrübəsi, güclü bazaya malik olması sayəsində daşıdığı vəzifənin öhdəsindən ləyaqətlə, fədakarlıqla gəlmişdir. 2006-cı ildə qəbul edilmiş “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Cəmiyyət üçün böyük məna kəsb edən ümdə bir xüsusiyyət—insan amilinin vacibliyi, insan haqlarının, hüquq və azadlıqların müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamından irəli gələn Milli Fəaliyyət Proqramı da bütünlükdə çalışmalarının əsas prinsipi olmuşdur.

Burda onu da xatırladaq ki, E.Süleymanovanın elmi-ictimai fəaliyyətini, həmkarları, görkəmli elm xadimləri, kimya elminin korifeyləri ilə işgüzar münasibətləri, dünyanın 80-dən çox ölkəsində keçirilən konfrans, simpozium, seminarlarda iştirakı, qayğıya, köməyə ehtiyacı olan insanlara, uşaqlara maddi-mənəvi yardımı, təcridxanalarda məhkumlarla, döyüş bölgələrində əsgərlərlə apardığı tərbiyəvi, ruhlandırıcı söhbətlər, onların ehtiyacları, vəziyyətləri ilə yaxından tanışlığı, qadınlarla cəzaçəkmə müəssisəsində olan görüşlərdən və digər tədbirlərdən alınmış fotolar bu mübariz, fədakar lider qadının, daşıdığı vəzifəsinə məsul olan dövlət xadiminin fəaliyyəti ictimai məzmunu, humanizmi, insanpərvərliyi, möhtəşəmliyi haqqında yazılmış “Bir ömürdə yaşanılan üç həyat” “Elmira Süleymanova. Biblioqrafiya”kitabında da geniş əks olunmuşdur.

Elmira Süleymanova özünün təklif və təşəbbüsləri ilə də ölkənin ictimai həyatında misilsiz xidmətlər göstərməsi, eləcə də dünya cəmiyyətində öndə olması, özünün əzmkarlığı, enerjisi, fitri istedadı ilə həmişəyaşarlıq qazanmışdır. Tanrı ondan dövlət və vətəndaş cəmiyyəti maraqlarının daşıyıcısı, məsul vəzifə sahibi olaraq ciddi xarakteri, elmi, mədəni potensialı, eləcə də ictimaiyyətçi qadın, bir xanım kimi, ümdə olan keyfiyyətləri —qayğıkeşliyi, nəcibliyi, səmimiliyi, insanseverliyi əsirgəməyib.

Bu illər ərzində Elmira xanımın özü də gördüyü işlər barədə açıqlamalar verib, təəssüratlarını xalqla bölüşüb. Ölkəmizdə keçirilən ictimai-mədəni əhəmiyyətli tədbirlər, dövlətçilik tariximizin, milli-mənəvi dəyərlərimizin, tolerantlığın, multikulturalizmin inkişafı, görkəmli şəxsiyyətlərin həyat yolu haqqında geniş məqalələrlə mətbuatda çıxışlar edib. Bütün bunlar hər zaman ictimaiyyətin diqqətini cəlb edib. Bu əhatəli tanışlıqdan doğan geniş və zəngin təəssüratlar, araşdırma xarakterli məlumatlar bizdə elmi-ictimai şəxsiyyətə yeni baxışı, fikri doğurmaya bilməzdi.

Azərbaycan Ombudsmanı harada olmasından asılı olmayaraq ölkədə qadın problemlərinin həlli məsələlərini, onların inkişafı, həyatımızın bütün sahələrində fəaliyyətini, mövqeyini müzakirə müstəvisinə çıxarmışdır. Azərbaycanda, o cümlədən dünya qadın hərəkatında, beynəlxalq tədbirlərdə milli-bəşəri mövzularda, taleyüklü məsələlərdə fəallıq göstərərək öz proqram və ideyalarının mühüm sənədlərdə əks olunması və təsbit edilməsinə nail olmuşdur. O, hər zaman və bütün çıxışlarında dövlətimizin getdikcə qüdrətlənməsində, qadınların öz bacarığı, qabiliyyəti ilə ölkə həyatında böyük mövqe tutmasında və xalqın sosial-iqtisadi, mədəni inkişafında ulu öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən ənənəvi formada və yeni təşəbbüslərlə, uğurla davam etdirildiyinə diqqət yönəldir.

O öz məqalə və çıxışlarında yeri gəldikcə tarixdə Azərbaycan qadınlarının xarakterini ifadə edən keyfiyyətlərindən bəhs edir. Azərbaycan Ombudsmanının genişmiqyaslı fəaliyyəti həmişə beynəlxalq aləmdə də diqqətlə izlənilmiş və bəyənilmişdir. Bu müvəffəqiyyətləri Azərbaycanın uğuru hesab edən E.Süleymanova yazır: “Azərbaycan Ombudsman təsisatı Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarının, habelə Asiya Ombudsmanlar Assosiasiyasının üzvüdür və 2006-cı ildə BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı nəzdində fəaliyyət göstərən Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsi tərəfindən Avropanın doqquz nüfuzlu Ombudsman institutu sırasında “A” statusu ilə akkreditasiya olunmuşdur...” Elmira xanım böyük fəxrlə və sevinclə onu da qeyd edir ki, Azərbaycan yeganə ölkədir ki, ölkə Prezidentinin Sərəncamı ilə 18 iyun tarixi “Milli İnsan Hüquqları günü kimi təsis olunmuş və bununla bağlı Ombudsmanın təşəbbüsü ilə elan edilmiş İnsan hüquqları aylığı çərçivəsində geniş tədbirlər keçirilir. Azərbaycan öz inkişaf templəri, sosial rifahın artması, insan hüquqları sahəsində öndər nüfuzu qazanmaqdadır və BMT Baş Assambleyası yanında İnsan hüquqları Şurasına ən uzun müddətə ilk seçilən dövlətlərdən olmuşdur.

Burda bizə belə bir etirafı açıqlamaq qalır: Elmira Süleymanova Azərbaycan Respublikasının İnsan hüquqları üzrə ilk müvəkkili (Ombudsman) kimi özünün geniş əhatəli fəaliyyətini həyatda qazandığı böyük təcrübəsi, potensialı, malik olduğu imkanları sayəsində uğurla aparan, ölkə həyatında qadınların, uşaqların hüquqlarının müdafiəsində, ümumən köməyə, qayğıya ehtiyacı olan insanlara hər zaman maddi və mənvi dəstəyini göstərən, Azərbaycan həqiqətlərini qlobal səviyyəyə çıxara bilən dünyagörüşlü ziyalı, maarifpərvər bir vətən övladıdır.

E.Süleymanovanın iş prinsipinə həm də belə bir əlahiddə qayda hakimdir: O, fəaliyyəti çərçivəsində özünün yaratdığı və rəhbəri olduğu, bu və ya digər formada, səlahiyyəti daxilində nəzarət etdiyi bütün sahələrin işini paralel şəkildə, biri digərinə dəstək olmaqla inkişaf etdirməyə nail olur. O, fəaliyyət sahələrinin ana xətti olan insan hüquqlarının müdafiəsini, qadınların vətəndaş cəmiyyətinin yaradılmasında iştirakını təmin etmək, gender bərabərliyi, ahıllara, uşaqlara qayğı göstərmək, ümumən dövlətin siyasətində başlıca amillərdən olan bütün məsələlər, ölkəmizin dünya cəmiyyətindəki yeri, mövqeyi və bu qəbildən fəaliyyəti boyu meydana çıxan proqram və layihələri daim düşüncəsindən keçirir, müntəzəm olaraq maraqlı, həmişə aktual olan mövzularda qələmə aldığı məqalələrlə mətbuatda çıxışlar edir.

Vətənin taleyi və ölkənin gələcəyinin böyüməkdə olan gənc nəslin üzərinə düşdüyünü daim diqqətdə saxlayan Elmira xanım sanki bütün insanları bu reallığı dərk edərək, uşaqlara qayğı və tələbkarlıqla yanaşaraq bu sahədə daim çalışmalı olduqlarını xatırladır, insanları əməli fəaliyyətə səsləyir. Elə narahatlığın, həm də ictimai çalışmaların nəticəsidir ki, bu sahədə görülən işlər, həyata keçirilən layihələr hər kəsin diqqətini cəlb edir.

Müstəqilliyimizin bərpasından sonra ölkənin yaşadığı çətin və mürəkkəb keçid dövrü, bundan bir qədər ötmüş vüsət alan inkişaf mərhələsi, ölkə daxilində aparılan quruculuq və yaradıcılıq işlərinin özü tariximizin şərəfli bir səhifəsidir. Bunların da bütün sahələrin fəaliyyətinə təsiri böyükdür. Bu mənada Elmira xanımın düşüncələrinin axarında yaxın keçmişimizə qayıdaraq, yenidən yaradılan, təşkil olunan sahələrin daşıdığı funksiyalara tarixi bir ekskurs etməsi, özünün icra etdiyi vəzifədə müstəqilliyin verdiyi imkanlardan dövlətçiliyin möhkəmlənməsi, xalqın öz azadlığının, müstəqilliyinin qorunmasında, hüquqlarının müdafiə olunmasında göstərdiyi xidmətin nümunəsi sayılmalıdır.

Elmira xanım söhbətlərimizdə təəssüflə qeyd edirdi ki, yaşadığımız əsr bəşər tarixini milli və dini ədavətin qızışdığı, milli-dini zəmində qarşıdurmaların müharibə həddinə çatdığı, etnik təmizləmə ilə müşahidə olunan yüzillik kimi tarixə düşə bilər. Dünyada bir tərəfdə terror, müharibə, insan hüquqlarının kütləvi şəkildə pozulması ilə nəticələnən hadisələr, digər tərəfdə isə insan hüquq və azadlıqlarının təmin olunması, humanist dəyərləri özündə birləşdirən tolerantlıq, sülh, dözümlülük, multikulturalizm ideyaları özünə yer tutub. Sevindirici haldır ki, Azərbaycan dünyaya öz multikulturalizm siyasətini, özünəməxsus modelini nümunə kimi təqdim edir və bu da örnək kimi qəbul olunur. Yəni multikulturalizmin hökm sürdüyü ölkədə demokratiya özünün ən yüksək inkişaf səviyyəsinə çatır. Dünyada multikulturalizmin artıq qəbul olunmuş Azərbaycan modeli bunun bariz nümunəsidir. Tolerantlıq, sülh, dözümlülük —hər bir ailədə, icmada, cəmiyyətdə, daha geniş götürdükdə dövlətlər arasında xoş münasibət, dostluq, qardaşlıq və əməkdaşlıq deməkdir... Müəllifin bu dəyərli fikirləri bir daha onu göstərir ki, ölkəmizdə tolerantlığın, multikulturalizm ənənələrinin tarixi çox dərindir və dövlətimiz bu sahədə özünün siyasətini uğurla davam etdirir.

Ombudsmanın fəaliyyətində insan hüquqları üzrə keçirilən ictimai dinləmələr də böyük əhəmiyyətə malikdir. İctimai dinləmələr zamanı Ombudsman əsasən sosial obyektlərə, ilk növbədə bütün şəhər və rayonlardakı Heydər Əliyev mərkəzlərinə, mərkəzi rayon xəstəxanalarına, diaqnostika, perinatal mərkəzlərinə, məktəblərə, kitabxanalara, uşaq bağçalarına və körpələr evlərinə gedərək, oradakı şəraitlə və göstərilən xidmət səviyyəsi ilə yaxından tanış olmuş, problem və qayğılarla bağlı onları dinləmiş, bütün bunlardan doğan məsələlərin həllini diqqətdə saxlayaraq onlarla yerindəcə məşğul olmuş və fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı öz tövsiyələrini vermişdir.

Bəllidir ki, dövlət müstəqilliyinin bərpa edilməsinin ilk illərindən başlayaraq Azərbaycanda hüquq sistemində böyük islahatlar aparılması sahəsində mühüm addımlar atılmışdır. Bu məqsədlə görülən işlərin həyata keçirilməsində Ombudsman təsisatının da rolu danılmazdır. Bunların da fonunda insan faktoru, onun şərəf və ləyaqətinin qorunması, müdafiə olunması məsələsi dayanır. Azərbaycan Respublikasınn insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova həyatımızın bütün sahələrində insanların iqtisadi, sosial, mədəni hüquqlarının müdafiəsində, qaçqın və məcburi köçkünlərin, məhkumların, hərbi qulluqçuların, əlillərin, ahılların, uşaqların...bu və ya digər səbəblərdən, həm də hər birinin öz xüsusiyyətlərindən doğan məsələlərdə hüquqlarının müdafiəsi istiqamətində ciddi, geniş əhatəli fəaliyyətilə xalqın böyük etimadını doğrultmuşdur.

E.Süleymanova Azərbaycan həqiqətlərini iştirak etdiyi beynəlxalq təşkilatların simpoziumlarında, konfrans və başqa bu kimi tədbirlərdə etdiyi məruzə və çıxışlarında təsirli formada, faktların dili ilə dünya ictimaiyyətinə çatdırıb. Xalqımızın başına açılan oyunları, torpaqlarımızın 20 faizinin işğal altında olmasını, soydaşlarımızın didərginlik, qaçqınlıq dərdlərini yüksək tribunalardan səsləndirib. Bu çıxışlar, çağırışlar həmişə həyəcanla böyük coşqularla, alqışlarla qarşılanıb. Elmira Süleymanova məhz özünün fəallığı, işgüzarlığı ilə nüfuzlu təşkilatların, beynəlxalq ekspertlərin, ombudsmanların yüksək etimadını, inamını qazanıb. Bütün bunlar haqqında olduqca yüksək fikirlər formalaşdırıb. Müxtəlif münasibətlərlə ünvanına gələn məktublar, təbriklər, açıqlamalarda onun şəxsiyyətinə, xarakterinə və bunların da fonunda əməyinə verilən dəyərlərlə tanışlıq zamanı bunun canlı şahidi oldum.

Professor Elmira Süleymanova kimya sahəsində apardığı araşdırmaları, tədqiqatları sayəsində 260-dan çox elmi əsərin, 40-dan çox ixtiranın müəllifidir. Ağır və məsuliyyətli vəzifəyə çiyin verən, daim elmi fəaliyyətlə məşğul olan işgüzar xanım, istedadlı alim neft kimyası, üzvi kimya və incə üzvi sintez üzrə 45-dən artıq beynəlxalq konfransda, o cümlədən müxtəlif ölkələrdə keçirilmiş 7 neft kimyası və 5 aroma-simpoziumda elmi məruzələrlə çıxış etmişdir. E.Süleymanova 4 elmlər doktoru, 16 elmlər namizədi yetişdirmişdir.

Kimya elminin inkişafında, yüksək ixtisaslı kadrların hazırlanmasındakı nailiyyətlərinə görə alim 1979-cu ildə SSRİ-nin “Fəxri kimyaçısı”, ətriyyat, qida, lak-boya sənayesində tətbiq olunmuş ixtiralarına görə”SSRİ ixtiraçısı” fəxri adlarına layiq görülmüşdür. 1997-ci ildə isə Azərbaycanda kimya elminin tərəqqisi və dünya səviyyəsində inteqrasiyası sahəsində xidmətlərinə görə akademik Y.H.Məmmədəliyev adına mükafata layiq görülmüş və medalla təltif olunmuşdur. Bunlar qeyd olunduğu kimi, professor Elmira Süleymanovanın elmdə qazandığı nailiyyətlərdir. O, sənətində olduğu kimi, ictimai fəaliyyətində də ölkənin və xalqın həyatında səmərəli fəaliyyəti ilə hər zaman fərqləndiyinə görə xeyli mükafatlara layiq görülmüşdür.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə ilk müvəkkili (Ombudsman) kimi xarici ölkələrdə apardığı genişmiqyaslı fəaliyyəti də ona çoxlu sayda mükafatlar qazandırıb. Bu mükafatların sırası o qədər zəngindir ki, onların hər biri haqqında ayrıca danışmağa ehtiyac duymuruq. Lakin onların sırasında bir neçəsinin üzərində dayanmağı vacib sanırıq. Çünki bu mükafatların qazanılmasına səbəb, beynəlxalq əhəmiyyətli, milli-bəşəri mahiyyət kəsb edən konfrans, simpozium, “dəyirmi masa”larda etdiyi məruzə və çıxışları, təklifləri həssaslıqla və böyük maraqla qarşılandığından bunlar təmsilçimizin simasında bir növ ölkəmizə, xalqımıza verilən mükafatdır. Azərbaycan Ombudsmanı insan hüquqlarının qorunması və həyata keçirilməsi sahəsində səmərəli fəaliyyətinə, insanlıq harmoniyasının yaradılmasında xidmətlərinə görə ABŞ-ın Mədəni Konvensiya qurumu tərəfindən Beynəlxalq Sülh Mükafatına (2003), dinlərarası əməkdaşlığa, beynəlxalq mənəvi dəyərlərə, BMT-nin gücləndirilməsinə, sülh mədəniyyətinin yaradılmasına yardımçı olan şəxslərdən biri olaraq Dinlərarası Sülh Federasiyası tərəfindən “Sülh Məramlı səfir” (2005) fəxri adına layiq görülmüşdür. 2008-ci ildə E.Süleymanova Polşa Respublikasının prezidenti tərəfindən insan hüquqlarının müdafiəsi sahəsində nailiyyətlərinə, Polşa və Azərbaycan arasında dostluq münasibətləri və əlaqələrinin yaranmasında, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsində xidmətlərinə görə Böyük Qızıl Xaç Ordeninin “Zabit” dərəcəsi ilə təltif olunmuşdur. “Dünyanın Sülh Səfiri” (2010), “Beynəlxalq Səfir” (2011)... bütün bunlar sülhsevər ölkəmizin haqq işinə, insan hüquqlarının qorunmasına verilən dəyər kimi qiymətləndirilməlidir. Onu da xatırladaq ki, E.Süleymanovanın adının İngiltərədə hazırlanmış “Kim kimdir” kitabına düşməsi, haqqında verilən məlumat da şəxsiyyətinə, gördüyü işlərin sanbalına və miqyasına verilən yüksək dəyərdir.

Ötən il də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasında İnsan hüquqlarının qorunması sahəsində səmərəli fəaliyyətinə və ölkənin ictimai-siyasi həyatında fəal iştirakına görə Elmira Teymur qızı Süleymanovanın “Şərəf” ordeni ilə təltif olunması və 80 illik yubileyi münasibətilə ona gələn təbriklər qəlbimdə xoş duyğular yaratdı. Mənalı, dəyərli bir ömür yaşayan görkəmli şəxsiyyətin, Azərbaycan Ombudsmanı, professor Elmira Süleymanovanın genişmiqyaslı fəaliyyətinə, vətənə və xalqına bəslədiyi sonsuz məhəbbətinə, insani duyğularla süslənmiş bütün keyfiyyətlərinə verilən dəyərlərin müəllifləri görkəmli alimlər, elm və ictimai xadimlər, dövlət rəsmiləri, xarici ombudsmanlar və ekspertlər, ictimaiyyət nümayəndələri idi.

Heç bir tərəddüd etmədən, inamla deyə bilərik ki, E.Süleymanova azad, suveren dövlətimizin, Azərbaycanın milli varlığının, kimliyinin mənalı, duyğulu ifadəsi olan üçrəngli bayrağına, dilinə, dininə, himninə, coğrafi ərazisini bütövlükdə əks etdirən xəritəsinə... bütün ictimai şüuru ilə bağlı olduğundan, könlünün vətən sevgisini, istəyini sübh şəfəqlərinin işığı, nuru təki insanlara bəxş etməyə çalışmışdır. Bu gün də o, Azərbaycan Ombudsmanı olaraq fəaliyyətini uğurla davam etdirir. Düşünürəm ki, öz bacarıq və səyləri, işgüzarlığı sayəsində dövlətçiliyimizin möhkəmlənməsi, xalqın sağlam, firavan yaşaması, milli maraqların birliyi yolunda apardıqları ideoloji mübarizələri, xeyirxah əməlləri ilə hər zaman yaddaşımızda közərənlər əvəzsiz insanlardı. Professor Elmira Süleymanova məhz belə insanların sırasındadır.

Bütün bunlar məndə kifayət qədər belə bir əminlik yaratdı ki, qəhrəmanımın bütün ictimai şüuru ilə daşıdığı vəzifənin, üzərinə düşən işlərin öhdəsindən bacarıqla gəlməsi, ətrafına qarşı diqqəti, həssaslığı, insanlarla mədəni, etik davranışı, səbrli, təmkinli olması onun şəxsiyyətinə ləyaqət verən keyfiyyətləri sırasındadır. Bu dediklərimiz yaxından və uzaqdan aydın görünən Azərbaycan Ombudsmanının qəlbən, fikrən azərbaycançılıq məfkurəsinə bağlı olduğunun ən parlaq nümunəsi, ifadəsidir. Böyük ömrün yollarında yaşadığı həyatın mənasını da bax bunlar təşkil edib.

Bunlar həm də onu söyləməyə əsas verir ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə ilk müvəkkili (Ombudsman), kimya elmləri doktoru, professor, neft-kimya və incə üzvi sintez sahəsində tanınmış alim və ictimai xadim, “Şöhrət” və “Şərəf” ordenli Elmira Teymur qızı Süleymanovanın yaşadığı böyük ömür yolu gəncliyimizə örnəkdir. İnanırıq ki, yeni nəsil hələ uzun illər onun irsindən, təcrübəsindən faydalanacaqdır.

**Şəfəq NASİR,**
**“Respublika”.**

# Azərbaycan, Gürcüstan və Almaniyanın aidiyyəti qurum rəhbərləri arasında görüş

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu islahatlar nəticəsində, digər sahələrlə yanaşı, dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsində də inkişafa nail olunub. Ölkə başçısının tapşırıqlarına əsasən bu sahədə yüksək göstəricilərin əldə olunması məqsədilə xarici ölkələrin praktikası öyrənilir, aparılan təcrübə mübadiləsi genişləndirilir.**

Bu istiqamətdə həyata keçirilən işlərin davamı olaraq iyulun 20-də Tbilisi şəhərində Əmlak Məsələləri Dövlət Komitəsi, Gürcüstanın Dövlət Əmlakı üzrə Milli Agentliyi, Almaniya Federativ Respublikasının Federal Maliyyə Nazirliyinin VIII Baş İdarəsi ilə birlikdə 3 tərəfli görüş keçirilib.

Səfər çərçivəsində Kərəm Həsənov, Azərbaycanın bu ölkədəki səfiri Dursun Həsənov və digər rəsmi şəxslər iyulun 20-də Tbilisinin mərkəzindəki Heydər Əliyev Parkında ulu öndərin abidəsini ziyarət edib, xatirəsini ehtiramla yad ediblər.

Görüşdə alman partnyorlarla əməkdaşlıq və beynəlxalq münasibətlərin rolu, Azərbaycan və Gürcüstan arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əlaqələrin inkişafı, o cümlədən dövlət əmlakının özəlləşdirilməsi prosesinin dəstəklənməsi məqsədi ilə yeni layihələrin həyata keçirilməsi görüşün müzakirə obyekti olub.

Tədbiri giriş nitqi ilə açan Gürcüstanın Dövlət Əmlakı üzrə Milli Agentliyinin sədri xanım Yekaterina Sisauri qeyd edib ki, Agentliyin əsas məqsədi dövlətin əmlakını, hökumətin iştirak payı olan şirkətləri ölkənin infrastrukturunun və iqtisadiyyatın inkişafını dəstəkləyən üsulla idarə etməkdir. Daşınmaz əmlak idarəçiliyi və özəlləşmə sahəsində də əlaqələrin genişləndirilməsi yeni layihələrin reallaşmasına imkan verəcək.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov isə bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət əmlakının idarə edilməsində səmərəliliyin artırılması və onun idarə olunmasının təkmilləşdirilməsi ilə bağlı müəyyənləşdirdiyi strategiya və hədəflər çərçivəsində komitə yeni metodların və yanaşmaların tətbiqini genişləndirib. Eyni zamanda ölkə başçısının “Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı” imzaladığı 2016-cı il 19 iyul tarixli Fərmana əsasən də özəlləşən müəssisələrin idarəetmə mexanizmi müasir prinsiplər əsasında həyata keçirilir.

Almaniya Federativ Respublikasının Federal Maliyyə Nazirliyinin VIII Baş İdarəsinin rəhbəri xanım Von Vik qeyd edib ki, ölkəmiz digər dövlətlərlə əlaqələrin möhkəmləndirilməsində, iqtisadiyyatın inkişafına zəmin yaradacaq yenilikləri dəstəkləməkdə maraqlıdır. Daşınmaz əmlakın idarəçiliyi sahəsi ilə bağlı əlaqələrin qurulması isə bu sferanın daha da genişlənməsinə imkan verəcək. Özəlləşmə sahəsində də Azərbaycanın tətbiq etdiyi yeniliklər, innovativ layihələr də yaradılacaq əməkdaşlığın uğurlu olmasından xəbər verir.

Görüşdə Azərbaycanın Gürcüstandakı Fövqəladə və Səlahiyyətli səfiri Dursun Həsənov da iştirak etmişdir.

**Nəriman CAVADOV,**
**“Respublika”.**

# UTECA BMT-nin dəstəklədiyi layihənin yeni fazasına keçir

**Azərbaycan Texnologiya Universiteti (UTECA) Rusiyanın Dubna şəhərində yerləşən Birləşmiş Nüvə Tədqiqatları İnstitutu ilə birgə elmi tədqiqat işlərinin yeni mərhələsinə hazırlaşır. Bununla bağlı Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun layihə koordinatoru Marina Frontasyeva UTECA-nın rektoru, professor Akif Süleymanovun qəbulunda olub.**




Söhbət zamanı tərəflər arasında əlaqələrin 2015-ci ildən başlandığı, bu müddət ərzində əhəmiyyətli nəticələr əldə edildiyi bildirilib. Üç il ərzində Göygöl və Daşkəsən rayonlarından nümunələr toplanaraq Dubna şəhərinə – Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna göndərilib. Orada analizlər aparılıb, sənayenin ətraf mühitə təsiri, atmosferdə ağır metalların miqdarı müəyyən edilib. Qeyd olunub ki, Göygöldə nəticələr normalara yaxın olub, Daşkəsən rayonunda isə havada çirklənmə müəyyən edilib ki, bu da həmin rayonda sənaye müəssisələrinin mövcud olması ilə bağlıdır.

Professor Akif Süleymanov hazırda Gəncədə səyane müəssisələrinin müasir ekoloji tələblərə cavab verdiyini, lakin buna bir daha əmin olmaq üçün atmosfer havasının vəziyyətinin müəyyən edilməsinin vacib olduğunu bildirib.

Danışıqlar zamanı BMT-nin dəstəyilə həyata keçirilən layihənin Gəncə və Mingəçevirdə də reallaşdırılmasına dair razılıq əldə edilib. Bunun üçün UTECA-nın tələbə, magistr, elmi işçi, professor-müəllim heyətindən ibarət geniş işçi qrup yaradılacaq. Şəhərdə, xüsusilə də istehsal müəssisələri ətrafında mövcud ekoloji vəziyyət qiymətləndiriləcək. Götürülən nümunələr Rusiyanın Dubna şəhərində yerləşən Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna göndəriləcək.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

# Ağdam: işğala son qoyulacaq günə az qalır

**Ağdam canlı muzeyi xatırladırdı, bu qədim diyarın hər daşının altında bir tarix yatırdı, burada zəngin yataqlar var idi. Ermənistanın hərbi təcavüzü rayonun iqtisadiyyatına, mədəni həyatına, flora və faunasına, ən əsası isə insanların taleyinə çox ağır zərbələr vurub. Erməni vandalizmi qədim bir şəhəri yer üzündən silib, onun xarabalıqları haqdan və ədalətdən danışmağı sevən dünyanın gözü qarşısında yüz minlərlə insanın acı taleyindən xəbər verir.**

**1993-cü il iyul ayının 23-də rayon ərazisinin 77,4 faizi erməni silahlı birləşmələri tərəfindən işğala məruz qalıb. Ağdam şəhəri, bir qəsəbə və 82 kənd ermənilər tərəfindən zəbt olunub. 143 min nəfər əhali məcburi köçkünə çevrilib. İşğal zonasında 34600 yaşayış evi, 108 mədəniyyət ocağı, 99 kənd klubu, 114 məktəb, 120 səhiyyə müəssisəsi, 57 rabitə qovşağı, onlarca zavod, fabrik, yüzlərlə tarixi abidə, min hektarlarla meşə zolağı, bir neçə strateji su mənbəyi qalıb. Ötən 25 il ərzində ermənilər bu qədim yurdun işğal olunmuş yerlərini xarabalığa çeviriblər. Təxmini hesablamalara görə, rayona 17 milyard ABŞ dollarından çox ziyan dəymişdir.**

**Ağdam Qarabağ müharibəsində 5 min nəfərdən çox şəhid verib, 3571 nəfər əlil olub. 16 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.**

**Hazırda rayon ərazisində 18 yeni qəsəbə salınıb. Enerji və su təsərrüfatı qaydaya salınıb, yeni məktəblər və tibb ocaqları inşa olunub. İstehsal sahələri işə salınıb.**

Erməni təcavüzü nəticəsində öz doğma yurd yerlərindən didərgin düşmüş, ev-eşiyini itirmiş insanlar elə bir gün olmur ki, yurd yerlərini, el-obalarını, ev-eşiklərini, həyət-bacalarını xatırlamasınlar. Təbii ki, onlar öz evlərinin hənirini, bağ-bağatlarının ətrini, doğma ocaqlarının istisini heç bir yerdə duya bilmirlər. Ağdamın zümzüməli çayları, diş göynədən bulaqları, zümrüd meşələri, yaşıl ormanları qəlbimizdə həzin bir bayatıya çevrilib.

Ermənistanın Azərbaycana qarşı apardığı hərbi təcavüzün ən ağır nəticələri özünü Ağdamda da büruzə verib. Vaxtilə ölkənin ən böyük, abad və varlı rayonlarından biri olan bu qədim diyar erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, təbiətin və insanların yaratdığı bu canlı abidə xarabalığa çevrilmişdir. İşğaldan düz 25 il keçir. Təcavüzün ağır zərbələrini dadmış insanlar ötən bu illər ərzində həmişə sülh tərəfdarı olduqlarını dönə-dönə nümayiş etdiriblər. Çox təəssüf ki, Ermənistan öz havadarlarının, təcavüzün, silah-sursatın, ekstremizmin dili ilə danışmağa üstünlük verir. Bir də təəsssüf doğuran odur ki, münaqişəni tənzimləməyi boynuna götürmüş beynəlxalq təşkilatlar Ermənistanın qeyri-konstruktiv mövqeyinə açıq-aşkar göz yumur, təcavüzkarı öz adı ilə çağırmır və münaqişəni dondurmağa cəhd edirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistan öz havadarlarının köməyinə arxalanaraq 1988-1993-cü illər ərzində torpaqlarımızın 20 faizini işğal etmiş, qədim yurd yerlərimizi xarabalığa çevirmiş, etnik təmizləmə apararaq bir milyona yaxın soydaşımızı öz ev-eşiyindən, doğma ocaqlarından qovmuşdur. Təcavüzün və işğalın miqyası çox geniş, nəticələri isə çox ağır olub.

1991-ci ilin sentyabrından 1992-ci il fevralın 26-dək ermənilər Dağlıq Qarabağın Azərbaycan əhalisini dədə-baba yurdlarından qovdular. Yüzlərlə kənd və qəsəbəni yandıraraq xarabalığa çevirdilər. Minlərlə dinc, əliyalın azərbaycanlı qətlə yetirildi. Həmin illərdə öz doğma ev-eşiyindən didərgin salınan əhali Ağdama pənah gətirir, burada sığınacaq tapırdı. Ağdamlılar faciə ilə üzləşmiş soydaşlarımızın dərdinə şərik çıxır, onlara diqqət və qayğı göstərir, son tikələrini belə onlarla yarı bölürdülər. Həmin vaxt Qarabağın toy otağı hesab olunan Ağdamın ən ağır, ziddiyyətli və çətin günləri başlanmışdı. Bu yerlərdə pərdə-pərdə dalğalanan musiqi sədalarının yerini qaçqın və məcburi köçkün dalğası bürümüşdü. Nə qədər ağır və dözülməz olsa da, Ağdam camaatı yüksək vətənpərvərlik nümayiş etdirir, düşmənə layiqli və tutarlı cavab verirdi.

Ağdam Qarabağda bir qalaya bənzəyirdi. Əslində ermənilər bu qalanın həndəvərinə yaxın düşə bilməzdilər. Xain düşmən ağdamlıların iradəsinə, vətənpərvərliyinə hələ keçən əsrin əvvəllərində baş vermiş erməni-müsəlman müharibəsindən bələd idi. Bütün Qarabağda Ağdamın necə mühüm əhəmiyyət kəsb etdiyini, Ermənistanın başladığı müharibədə daha çox itkiyə məruz qaldığını xalqımızın ümummilli lideri Heydər Əliyev çox düzgün olaraq belə qiymətləndirib: **"1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü - ilk atışmalar, ilk qığılcım, təcavüzün ilk addımları məhz Ağdama tərəf yönəlmişdir. Bu da təbiidir, çünki Dağlıq Qarabağda yaşayan ermənilər daim Ağdamla əlaqədə olurdular. Ağdamın nə olduğunu yaxşı bilirdilər. Ağdamın tarixini də, keçmişini də, Ağdamın insanlarının nə qədər cəsur olduqlarını da yaxşı bilirdilər. Strateji təcavüzün qarşısının alınması üçün Ağdam, şübhəsiz ki, çox əhəmiyyətli bir nöqtədə idi. Ağdam qorunmalı idi, Ağdam saxlanmalı idi, Ağdam müdafiə olunmalı idi. Ağdamın işğalı yolverilməz idi".**

1991-ci ildən başlayaraq Ağdam od-alov içərisində, ağır döyüş maşınlarının tırtıllları altında boğulur, öz tarixinin ən ağır və məşəqqətli günlərini yaşayırdı. **İgid oğlanlar torpaqlarımızın müdafiəsi üçün qızğın döyüşlərə atılır, erməni hərbi qüvvələrinə ağır və sarsıdıcı zərbələr vururdular. Ağdam camaatının hünəri qarşısında ermənilər aciz qalmışdılar. Son damla qanına qədər Ağdam uğrunda döyüşərək həlak olan, Azərbaycanın Milli qəhrəmanları Allahverdi Bağırov, Fred Asif, Canpolad Rzayev, Yelmar Edilov, Şirin Mirzəyev, Əlabbas Qarayev və digərlərinin ruhu indi də bu torpaqlarda nigaran-nigaran dolaşır.**

Bacarıqsız rəhbərlərin buraxdığı kobud səhvlər torpaqlarımızın itirilməsi ilə nəticələndi. Ağdamın işğal edilməsinin əsası da elə 1991-1992-ci illərdə qoyulmuşdu. Bu haqda dəfələrlə söhbət açılıb. Ən doğru qiyməti xalqımızın dahi oğlu, ümummilli liderimiz Heydər Əliyev verib: **"Təəssüflər olsun ki, Ermənistan silahlı qüvvələrinin gücü və eyni zamanda Ağdamın müdafiəsində buraxılan səhvlər və bəzi səbəblər nəticəsində rayonun ərazisinin bir hissəsi işğal edilmişdir".**

1993-cü il iyun ayının 15-də xalqın tələbi ilə hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ölkəni uçurumdan və erməni işğalından xilas etmək üçün əsl fədakarlıq, vətənpərvərlik nümayiş etdirdi. Həmin vaxt batalyonların Ağdamı necə tərk etmələrini camaat çox yaxşı bilir. Bəzi qüvvələr, o cümlədən onların xarici havadarları qəsdən təxribat törətmişdilər ki, bundan istifadə edərək yeni hakimiyyəti devirsinlər. Lakin başı müsibət çəkmiş ağdamlılar bu təxribata uymadılar, xalqın və ölkənin nicatını yalnız ümummilli liderimiz Heydər Əliyevdə gördülər.

Yeri gəlmişkən, 1994-cü ilin aprelində bəzi qüvvələr rayonun 14 kəndini ermənilərə qurban verməklə yenidən öz çirkin niyyətlərini həyata keçirdilər. Həmin vaxt bu barədə möhtərəm Prezidentimizə məlumat çatdırmaq çox çətinliklə olsa da, bu fakt görünür. Göründüyü kimi, bir tərəfdən ermənilərin birləşmələrinin aramsız hücumları, digər tərəfdən isə bəzi qara qüvvələrin təxribatı nəticəsində Ağdam işğala məruz qalmışdır.

Hazırda rayonun əlimizdə qalan hissəsində 90 mindən çox əhali məskunlaşıb. Əzəldən torpağa və zəhmətə bağlı insanlar əkin-biçinlə, heyvandarlıqla məşğul olur, öz güzəranı, qayğıları ilə yaşayırlar. Həyat günbəgün yaxşılığa doğru dəyişir. 44 kənddə və yeni salınmış qəsəbələrdə gələcək naminə quruculuq işləri davam etdirilir.

Bu barədə rayon icra hakimiyyətinin başçısı əvəzi Allahverən Əliyev məlumat verərək deyir:

- Bu gün cəbhə bölgəsində, düşmən silahlarının susmadığı barıt qoxulu torpaqda insanlar əkin-biçinlə məşğul olur, qurub-yaradır, müharibənin vurduğu ziyanı aradan qaldırır və gələcəyə çox nikbin baxırlar. Ağdamlıların yekdil fikri belədir ki, ötən illər ərzində onlara göstərilən dövlət qayğısına əməli işlərlə cavab versinlər. Məhz buna görə də onlar gecəni gündüzə qataraq çalışırlar. Dövlətimizin başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində rayon ərazisində yeni qəsəbələr salınır, müharibədən zərər görmüş binalar bərpa olunur.

Cəbhə xəttində yaşayan insanlara dövlət tərəfindən göstərilən diqqət və qayğı davamlı xarakter alıb, rayonda mütəşəkkillik, təşəbbüskarlıq, sabitlik hökm sürür. Ermənistanın hərbi təcavüzü nəticəsində vaxtı ilə başqa yerlərə üz tutmuş insanlar indi geriyə, doğma yurd yerlərinə qayıdır, aparılan quruculuq işlərində öz qüvvə və bacarıqlarını əsirgəmirlər.

Mübaliğəsiz demək olar ki, rayonda həyata keçirilən tədbirlər, sosial-iqtisadi inkişaf, qəsəbələrin və kəndlərin görkəminin yaxşılığa doğru dəyişməsi, insanların fəallığının artması diqqəti daha çox cəlb edir. Yaralı və barıt qoxulu torpağın bu günündən və uğurlarından bəhs edən ağdamlılar ötən əsrin 70-80-ci illərindəki şöhrətli bərpa etmək üçün sözün əsl mənasında mücadiləyə başlayıblar.

Ərazisinin dörddə üç hissəsi Ermənistan tərəfindən işğal edilmiş rayonda son vaxtlar tikinti-quruculuq işlərinin həcmi xeyli artıb. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü, tövsiyəsi və tapşırığı əsasında aparılan yenidənqurma işləri yerli sakinlərin dərin razılığına səbəb olub. Ağdamlılara göstərilən dövlət qayğısının ardıcıl və davamlı xarakter aldığı bir vaxtda rayon fəalları Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəyişməz və qətiyyətli mövqeyini müdafiə etdiklərini və tezliklə doğma yurd yerlərinə qayıdacaqlarını bir daha bildirirlər.

Təbii ki, insanlara göstərilən diqqət və qayğı onların həyat şəraitinə, güzəranına müsbət təsir göstərir və həmin adamlar doğma torpağa daha da ürəkdən bağlanırlar.

Dövlətimizin başçısı ötən illərdə olduğu kimi, bu il də rayonun iqtisadiyyatının yüksəldilməsinə və insanların həyat şəraitinin yaxşılaşdırılmasına öz diqqət və qayğısını əsirgəməyib. Rayonda sosial məsələlərin həllinə diqqət artırılmış, əhalinin fasiləsiz elektrik enerjisi, təbii qaz və su ilə təminatının yaxşılaşdırılması üçün tədbirlər, tikinti-quruculuq və abadlıq işləri davam etdirilib.

Cari yarımillikdə rayon üzrə ümumi məhsul istehsalının həcmi 57 milyon 786 min manat olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2 milyon 616,7 min manat və ya 4,7 faiz çoxdur. Altı ayda 6 milyon 205 min manatlıq sənaye, 39 milyon 660 manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, 4 milyon 210 manatlıq tikinti-quraşdırma işləri aparılıb.

Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan və Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yollarının tikintisi başa çatdırılaraq sakinlərin istifadəsinə verilib. Quzanlı qəsəbəsində Muğam Mərkəzinin tikintisində son tamamlama işləri aparılır, 360 şagird yerlik orta məktəbin inşası davam etdirilir.

Aqrar sahədə görülən işlərdən danışılarkən diqqətə çatdırılıb ki, ilin birinci yarısında 351 hektar sahədən 5408 ton kartof, 4567,2 hektardan 18 min 475 ton tərəvəz istehsal olunub, 3100 hektarda pambıq, 1569,5 hektarda təzə yonca, 537,1 hektarda şəkər çuğunduru əkilib. 2181 hektarda arpa, 14 min 055 hektar buğda sahəsindən 52 min tondan artıq taxıl əldə edilib. Bundan başqa, rayon kümçüləri tərəfindən 17 ton 83 kiloqram barama tədarük olunub. Rayonda heyvandarlığın, xüsusilə cins mal-qaranın inkişaf etdirilməsi məqsədilə 1251 baş heyvan süni yolla mayalandırılıb, 736 baş sağlam bala alınıb. Rayonun ərazisində məhsul yığımına başlanılıb. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin olması, sahibkarlara kreditlərin verilməsi, əkinçilərə istifadə etdikləri motor yağları və yanacağa görə haqların ödənilməsi, yüksək reproduksiyalı toxumların və cins mal-qaranın əldə edilməsində güzəştlərin olması hesabına sahənin inkişafı üçün əlverişli zəmin yaranmış, bu sahəyə diqqət artmışdır.

Ağdamlılar deyirlər ki, Ermənistan danışıqlarda yenə də qeyri-konstruktiv mövqe tutsa, biz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal altında qalan torpaqlarımızı yadellilərdən azad etməyə hər an hazırıq. Uşaqdan tutmuş ixtiyar qocaya qədər hamı bu ruhdadır, bu inamdadır və bu əhval-ruhiyyədədir.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# "Bakı-2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının loqosu təqdim olunub

**İyulun 21-də gələn il Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalına rəsmi geri sayım başlayıb. Bununla əlaqədar "Bakı-2019" Avropa Gənclər Olimpiya Festivalının (AGOF) Təşkilat Komitəsi tərəfindən turnirin rəsmi loqosu təqdim edilib.**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Leo Burnett" brend agentliyinin dizaynerlərindən ibarət yerli heyətin tərtib etdiyi loqo dostluq, ədalətli oyun və tolerantlıq ruhunu gücləndirən müasir, dinamik və çevik brendi əks etdirir. Brendin əsas məqsədi beynəlxalq idman yarışlarına ev sahibliyi edən ölkənin, şəhərin qədim mədəniyyətini, tarixini əks etdirmək, eyni zamanda, gələn il baş tutacaq idman yarışının bundan əvvəlkilərlə müqayisədə fərqini nümayiş etdirmək və milyonlarla insanı bir araya gətirən idman tədbirində "Bax və hiss et!" şüarını nümayiş etdirməkdir.

Bakının irs və mədəniyyətini (od və qədim Azərbaycan naxışı olan butanı), birlik və dostluq konsepsiyalarını özündə ehtiva edən loqo, eyni zamanda, Azərbaycan paytaxtının möhtəşəm müasir memarlıq nümunələrini (Alov qüllələri və Heydər Əliyev Mərkəzini) təsvir edir. Parlaq rəngləri canlandıran bu loqo yarışlara qatılacaq hər bir iştirakçının müsbət enerjisi və Bakının çoxşaxəli gözəlliyini təsvir etdirən əhatəli çalarlar palitrasından ibarətdir.

Azərbaycanın gənclər və idman naziri, "Bakı-2019" Təşkilat Komitəsinin sədr müavini Azad Rəhimov bildirib: "Təqdim etdiyimiz bu loqo Azərbaycan mədəniyyətinin təzahürü olmaqla yanaşı, Avropa Olimpiya Hərəkatının əsl ruhunu və bütün dünyanı ilhamlandıran, milyonlarla insanı bir araya gətirməyi bacaran idman mübarizəsini əks etdirir. Böyük idman ənənəsi olan, bir çox mötəbər yarışlara yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan Avropanın gənc atletlərini Bakıda salamlamağı səbirsizliklə gözləyir".

**AZƏRTAC**

## Yeni nəşrlər

**Validə Küskün Azərbaycanın dilbər guşəsi sayılan, loğman təbiəti ilə insanlarda xoş ovqat yaradan, sazlı-sözlü Tovuz rayonunda dünyaya göz açıb. Erkən yaşlarından poeziya vurğunu olub, görüb müşahidə etdiklərini ürək süzgəcindən keçirərək poetik ilhamla qələmə alıb, misralar şeirə çevrilib.**

İlk şeirlər kitabı nəşr olunanda Validə xanımın sevinci köksünə sığmayıb, özünü göylərin yeddi qatında hiss edib. O, mütaliəni çox sevir, el şairlərinin, aşıqların yaradıcılığına böyük maraq göstərir, həmişə axtarışda olur, yeni-yeni şeirlərini qələmə alır.

Bu günlərdə şair, "Qızıl Qələm" mükafatı laureatı Validə Küskünün "Göz yaşları verən dünya" adlı yeni şeirlər kitabı "Elm və təhsil" nəşriyyatında nəfis tərtibatda nəşr olunmuşdur.

Kitabda Validə Küskünün övlad həsrəti, ana ürəyinin təlatümlü hayqırtıları, dünyanın vəfasızlığına təəssüf notları, insan taleyinin, insan ömrünün arzu və istəklərinin həyata keçməsindən bəhs edən şeirlər yer tutur.

Kitabın müəllifi, oxucuların sevimlisinə çevrilən Validə Küskün redaksiyamızın qonağı oldu. Hiss olunurdu ki, o, sidq ürəklə şeirə, poeziyaya bağlıdır, Vətəni, doğma Azərbaycanı ürəkdən sevir, tez-tez mavi Xəzərin nəğməli sahillərini seyr edir, pıçıldaşan ləpələr sanki onunla şirin-şirin söhbətləşir.

"Göz yaşları verən dünya" kitabı bir ananın övlad itkisindən doğan dərdli-qəmli hıçqırtılardan, göyüm-göyüm göynəyən ürək çırpıntılarından yaranmışdır. Övladını vaxtsız itirən şair Validə Küskün şeirlərini sanki ürəyinin qanı ilə yazmışdır. Dərdləri ilə baş-başa qalan şair fani dünya ilə heç cür barışa bilmir.

Şair Validə Küskünü yaşadan poetik yaradıcılığı, qəlbini göynədən Vətənin ağrıları, həm də şəxsi kədəridir. O çox gəzir, bulaq üstə gedir, təbiətin seyrinə çıxır, dağların-dərələrin çəmən-çiçəklərindən ilham alır, könlü açılır, düşüncələri misralara çevrilir. Yenə öz dünyasına qapılır, ondan heç vəchlə qopa, ayrıla bilmir. Şairin toxdaqlığı da sözü ilə dərdlərinə məlhəm olub, onunla ovunmasındadır. Şeirlərinin birində şair üzünü dağlara tutur:

*Ay çənli dağlar,*
*burada bir küskün ana ağlar,*
*Gizli-gizli əlləri qoynunda ağlar.*
*Bilmirəm bir nələr gəldi başıma*
*Öz-özündən küsən mənəm, a dağlar.*



Şair Validə Küskünün poeziyasını gözəlləşdirən, poetik fikrin daha mənalı və canlı ifadə olunmasına rəvac verən sərbəst vəzndən də ustalıqla istifadə etməyi bacarmasıdır.

İnsana, övlada, dostlara, məhəbbətin tərənnümünə həsr olunmuş şeirlərində təmizlik, paklıq insanı yüksəldən, onu unutmayan, yoxluğundan mütəəssir olan ana ürəyinin çırpıntılarını eşidirik.

Validə Küskünün "Göz yaşları verən dünya" şeirlər kitabını müəllifin yaradıcılıq uğuru saymaq olar. İnanırıq ki, o yeni kitabları ilə oxucuların qəlbində özünə layiqli yer tapacaqdır.

**Qədir ASLAN,**
**"Respublika".**

# "Coca-Cola" şirkəti media nümayəndələri ilə görüş keçirib

**22 İyul — Milli Mətbuat Günü münasibətilə "Coca-Cola" şirkəti Hilton-Bakı hotelində media nümayəndələri üçün tədbir təşkil edib.**

**"Coca-Cola" şirkətinin Qafqaz və Mərkəzi Asiya Ölkələri üzrə Kommunikasiya Meneceri Elşad Fərzəliyev** media nümayəndələrinə şirkət haqqında qısaca məlumat verərək bildirdi ki, şirkət sərinləşdirici içkilərin istehsalı üzrə dünya lideridir. Burada 500-dən yuxarı brend və 3900-dən çox içki növü istehsal edilir. Dünyada ən çox tanınan və ən bahalı brendlərdən olan "Coca-Cola" ilə yanaşı, şirkətin portfelinə dəyəri 1 mlrd. ABŞ dollarını ötən 21 brend daxildir ki, onlardan 19-u az kalorili və kalorisiz seçimlərdə mövcuddur. Brendlər sırasına "Diet Coke", "Fanta", "Sprite", "Coca-Cola Zero"və s. daxildir.



E.Fərzəliyev Qafqaz regionu üzrə "Coca-Cola" şirkətinə yeni direktor vəzifəsinə təyin olumuş **Adrian Çernautanu** da media nümayəndələrinə təqdim etdi. Bildirdi ki, Adrian Çernautan geniş təcrübəsi sayəsində Qafqazda strateji inkişaf, biznesin genişləndirilməsi və "Coca-Cola" brendinin əhəmiyyətinin artırılması ilə məşğul olacaq.

Adrian Çernautan "Coco-Cola" şirkətinin qlobal komandasına 2009-cu ildə qoşulub. O, Rumıniyada brend üzrə kommersiya direktoru və Moldova, Macarıstan və Avstriyada baş direktor vəzifələrində çalışıb.

Qafqaz regionunda "Coca-Cola" şirkətinin biznesinə rəhbərlik etməyə olduqca məmnunam. Bu, mənim üçün tam yeni bazardır və mən ictimaiyyət üçün vacib olan yeni layihələrin həyata keçirilməsini səbirsizliklə gözləyirəm, - deyə Adrian Çernautan bildirdi.

Öz növbəsində Adrian Çernautan da mətbuat nümayəndələrini peşə bayramı münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

# Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalının başlanmasına bir il qalıb

**İyulun 21-də 2019-cu ildə Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalına geri sayım başlayıb. Şəhərin mərkəzi küçələrindən birində geri sayımı göstərəcək saat quraşdırılacaq.**

AZƏRTAC xəbər verir ki, festivalın açılış mərasimi gələn il iyulun 21-də "Crystal Hall"da baş tutacaq və tədbir 6 gün davam edəcək. Yarışlarda iştirak üçün Bakıya 50 Avropa ölkəsindən 2 min idmançı, 1500-dən artıq nümayəndə heyəti, ümumilikdə 4 minədək qonağın gələcəyi gözlənilir.

İdmançılar 10 idman növündə (əsas 9, ev sahibi olan ölkəyə əlavə 1 idman növü verilir: atletika, basketbol, velosiped, idman gimnastikası, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, yunan Roma və sərbəst güləş ), 12 idman qurğusunda, 13 proqram üzrə mübarizə aparacaqlar.

Festivala ev sahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən təsnifat mərhələsi olmadan iştirak etmək hüququnu qazanır. Gənclərə Olimpiya Hərəkatını tanıtmaq, Olimpiya dəyərləri və ideallarını öyrətmək məqsədilə 1990-cı ildə Avropa Olimpiya Komitəsinin sabiq prezidenti Jak Roq tərəfindən Avropa Gənclər Festivalını keçirmək təklifini irəli sürüb. Festival 14-18 yaşlı gənclər arasında Avropa atletləri üçün yüksək səviyyəli çox idman növlü tədbirdir. İlk dəfə festival 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib.

Festival iki ildə bir dəfə, cüt deyil, tək illərdə qışda və yayda keçirilir. Avropa Gənclər Olimpiya Festivalı Avropa Olimpiya Komitəsinə aiddir və Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur.

Festival digər qitələrdə keçirilən Asiya Gənclər Oyunları yaxud Panama Gənclər Oyunlar kimi ənənəni, həmçinin Avropada davam etdirmək imkanını yaradır.

İyulun 10-da yarışa hazırlıq işləri ilə daha yaxından tanış olmaq üçün Avropa Olimpiya Komitəsi Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki, Əlaqələndirmə Komissiyasının üzvü, İslandiya Milli Olimpiya Komitəsinin baş katibi xanım Liney Rut Xalldorsdottir və Əlaqələndirmə Komissiyasının üzvü, Bosniya və Herseqovina Milli Olimpiya Komitəsinin baş katibi Said Fazlaqiç Bakıda səfərdə olublar. Toplantı zamanı festivala hazırlıqla bağlı Təşkilat Komitəsinin gördüyü işlər, idman yarışlarının cədvəli, Atletlər kəndindəki vəziyyət, Milli Olimpiya komitələri arasında əlaqələrin qurulması, könüllülərin yarış proqramı və digər mühüm əhəmiyyət kəsb edən məsələlər müzakirə edilib. Bununla yanaşı, qonaqlar Bakıda olduqları müddətdə Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Atletlər kəndi və bir sıra idman qurğularında da olublar.

**AZƏRTAC**

# Gəncədə ağır cinayət əməlləri törətmiş mütəşəkkil qrupun fəal üzvlərindən biri məhv edilib

**İyulun 3-də və 10-da Gəncədə törədilmiş cinayət hadisələri ilə əlaqədar birgə həyata keçirilmiş intensiv və təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində daha 8 nəfər tutularaq barələrində həbs qətimkan tədbiri seçilib.**

Respublika Baş Prokurorluğunun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, cinayət işi üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində axtarışda olan, Gəncədə ağır cinayət əməlləri törətmiş mütəşəkkil qrupun fəal üzvlərindən biri, Yunis Səfərovla yaxın münasibətlərdə olan və əvvəllər məhkum olunmuş Bağırov Anar İslam oğlunun iyulun 20-də Binəqədi rayonu, Xocəsən qəsəbəsində gizləndiyi yer müəyyən edilib. A.Bağırovun tərksilah olunması və saxlanılması üzrə Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi əməliyyat qrupu tərəfindən keçirilmiş əməliyyat tədbirləri zamanı o, silahlı müqavimət göstərərkən cavab tədbiri olaraq məhv edilib. Hadisə yeri və meyitə baxış zamanı A.Bağırovun üzərindən bir ədəd "Makarov" tipli tapança və həmin silaha dair sursat aşkarlanaraq maddi sübut kimi götürülüb.

Hazırda cinayəti törətmiş şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri əməliyyat-axtarış tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# Əmək yarmarkaları

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən növbəti əmək yarmarkaları İmişli və Siyəzən rayonlarında keçirilib.**

Yarmarkalarda ümumilikdə 707 vakant (İmişli rayonunda 565, Siyəzən rayonunda 142) iş yeri işsiz və işaxtaran vətəndaşlara təklif olunub. Hər iki tədbirdə daimi iş yerləri ilə yanaşı, kənd təsərrüfatı sahələri üzrə mövsümi iş yerləri də təklif edilib.



Tədbirlərdə ayrı-ayrı işəgötürənlərin nümayəndələri də iştirak edib. Vakant iş yerlərinə göndərişlər verilib, ayrı-ayrı işsiz və işaxtaran şəxslər peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilmək, ödənişli ictimai işlərə göndərilmək üçün qeydiyyata götürülüblər.

Onu da qeyd edək ki, cari ilin ötən dövründə Dövlət Məşğulluq Xidməti tərəfindən 12 rayon və şəhərdə əmək yarmarkaları keçirilib. Bu tədbirlərdə 311 müəssisədən 3,7 min vakant iş yeri təqdim edilib.

**M,MUSTAFAYEV,**
**"Respublika".**

"Sadiq" şirkətinin 08.12.2006-ci il tarixdə qeydiyyatdan keçmiş nizamnamə dəyişikliyi itdiyi üçün etibarsız sayılır.

Ələsgərova Gülsədəf Əliqulu qızının adına Xaçmaz rayonu, Nərəcan kəndində yerləşən fərdi yaşayış evinə verilmiş 2808006749 qeydiyyat və Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (reyestr nömrəsi; 302013007978) itdiyi üçün etibarsız sayılır.

Astara rayonunun Siyəkü kənd sakini İrşadov Əfqan Vəyəddin oğluna verilmiş Azərbaycan Respublikasının müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Tibb Universiteti psixiatriya kafedrasının kollektivi 2 saylı Kliniki Psixiatriya Xəstəxanasının Baş həkimi Cəmilə xanım Əmrahovaya, atası**
**SABİR ƏMRAHOVUN**
**vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**2 saylı Kliniki Psixiatriya Xəstəxanası həkim və tibb heyəti Klinikanın Baş həkimi Cəmilə xanım Əmrahovaya, atası**
**SABİR ƏMRAHOVUN**
**vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Müşfiq MİRZƏ

● Çapa imzalanmışdır
21.07.2018